Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu

# Azərbaycan-Pakistan işgüzar görüşü keçirilib

Image not readable or empty
/uploads/images/news/8ec43c38bc15df6dccf62c674192a13d_600x500-resize_crop-2546.jpg

Bakı Biznes Mərkəzində Pakistan iş adamları ilə görüş keçirilib.
İqtisadiyyat  Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə keçirilən görüşdə hər iki tərəfdən sənaye, kənd təsərrüfatı, tekstil və s. sahələrdə  fəaliyyət göstərən  40-a yaxın iş adamı iştirak edib.
Tədbirdə AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev Azərbaycanda uğurla həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində ölkəmizin qazandığı iqtisadi uğurlar barədə məlumat verib, Azərbaycanın xarici investisiyalar üçün əlverişli və cəlbedici ölkə olduğunu vurğulayıb. Yusif Abdullayev  Pakistan və Azərbaycan arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsi üçün hər iki ölkənin böyük potensiala malik olduğunu qeyd edərək  iş adamlarını fəal əməkdaşlığa dəvət edib.
Azərbaycana səfərindən məmnunluğunu bildirən Pəncab vilayətinin Sənaye və Ticarət Palatasının prezidenti Ali Ansar Ghumman Azərbaycan-Pakistan münasibətlərinin uğurla inkişaf etdiyini, qarşılıqlı faydalı əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini vurğulayıb, Pakistanın iqtisadiyyatına və biznes imkanlarına dair məlumat verib.
Sonra Azərbaycanın investisiya mühiti və biznes imkanlarına dair təqdimat keçirilib.
Tədbir ikitərəfli görüşlərlə davam edib.